**Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

*1. Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə" təsdiq edilsin (əlavə olunur).* [2]

2. "Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində icbari tibbi sığortanın baza zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri" təsdiq edilsin (əlavə olunur).

3. "Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində icbari tibbi sığortanın baza zərfi ilə əhatə olunmayan tibbi xidmətlərin siyahısı və tarifləri" təsdiq edilsin (əlavə olunur).

4. Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tabeliyinə verilmiş dövlət səhiyyə sisteminə daxil olan qurumlar (Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin şöbələri, sanitariya və epidemioloji xidmət, əczaçılıq və tibbi təhsil müəssisələri, habelə psixonevroloji və narkoloji dispanserlər istisna olmaqla) tərəfindən həyata keçirilməsi mümkün olmayan icbari tibbi sığortanın baza zərfinə daxil olan tibbi xidmətlərin siyahısı təsdiq edilsin (əlavə olunur). [3]

5. ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi: [4]

5.1. icbari tibbi sığortanın maliyyələşmə mənbələri ilə bağlı təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikası Prezidentinə təqdim etsin;

5.2. Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tabeliyinə verilmiş dövlət səhiyyə sisteminə daxil olan qurumlar (Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin şöbələri, sanitariya və epidemioloji xidmət, əczaçılıq və tibbi təhsil müəssisələri, habelə psixonevroloji və narkoloji dispanserlər istisna olmaqla) tərəfindən həyata keçirilməsi mümkün olmayan icbari tibbi sığortanın baza zərfinə daxil olan tibbi xidmətləri göstərəcək tibb müəssisələrinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq seçilməsini və həmin müəssisələrlə müqavilə bağlanmasını təmin etsin. [5]

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2016-cı il
№ 1181

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə[6]

### 1. Ümumi müddəalar

Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə (bundan sonra – pilot layihə) icbari tibbi sığortanın həyata keçirilməsi qaydasını, müddətini, baza zərfinə daxil olan tibbi xidmətlərin dairəsini və tariflərini, sığorta ödənişi metodlarını, və pilot layihə ilə bağlı digər məsələləri tənzimləyir.

### 2. Əsas anlayışlar

2.1. Pilot layihənin məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

2.1.1. **pilot layihənin baza (əsas xidmətlər) zərfi (bundan sonra – baza zərfi)** – pilot layihə çərçivəsində sığorta olunanlara müvafiq növdə, həcmdə və şərtlərlə göstərilən tibbi xidmətlərin siyahısı;

2.1.2. **sığorta olunan** – "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada yaşayış yeri üzrə Mingəçevir şəhəri*, Yevlax və Ağdaş rayonlarında* qeydiyyata alınmış Azərbaycan Respublikasının vətəndaşları, habelə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində nəzərdə tutulmuş qaydada yaşayış yeri üzrə Mingəçevir şəhəri*, Yevlax və Ağdaş rayonlarında* qeydiyyata alınmış müvəqqəti və ya daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər;[7]

2.1.3. **icbari tibbi sığorta ödənişi (bundan sonra – sığorta ödənişi)** – sığorta olunanlara tibbi xidmətlərin göstərilməsi müqabilində baza zərfində qeyd olunmuş tariflərə uyğun olaraq tibb təchizatçısına ödənilən maliyyə kompensasiyası;

2.1.4. **adambaşı sığorta ödənişi metodu** – ilkin səhiyyə xidməti göstərən tibb təchizatçısına təhkim olunmuş şəxslərin sayına görə və baza zərfinə daxil olan tibbi xidmətlər üçün müəyyən edilmiş tarifə əsasən həmin tibb təchizatçısına maliyyə vəsaitinin ödənilməsi (təhkim olunmuş şəxslərə tibbi xidmətin göstərilib göstərilməməsindən asılı olmayaraq);

2.1.5. **xidmətə görə sığorta ödənişi metodu** – göstərilmiş hər bir tibbi xidmətə görə baza zərfinə daxil olan tibbi xidmətlər üçün müəyyən edilmiş tariflərə uyğun olaraq tibb təchizatçısına maliyyə vəsaitinin ödənilməsi;

2.1.6**. icbari tibbi sığorta hadisəsi (bundan sonra – sığorta hadisəsi)** – baza zərfinə daxil olan tibbi xidmətlərdən istifadə edilməsinə əsas verən hadisə və ya hal;

2.1.7. **tibb təchizatçısı** – *Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində* Agentliyin tabeliyinə verilmiş dövlət səhiyyə qurumları, "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında" və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının qanunlarına əsasən fəaliyyət göstərən və müəyyən olunmuş tariflər çərçivəsində Agentliklə xidmətlərin göstərilməsinə dair müqavilə bağlamış özəl tibb fəaliyyəti və ya özəl tibbi praktika ilə məşğul olan hüquqi və ya fiziki şəxslər və aptek təşkilatları;[8]

2.1.8. **ilkin səhiyyə xidməti** – dövlət və ya pilot layihənin 2.1.7-ci yarımbəndində göstərilən özəl tibb təchizatçıları tərəfindən sığorta olunanlara göstərilən ilkin tibbi sanitar yardım xidmətləri;

2.1.9. **sığorta tələbi** – sığorta olunanın pilot layihəyə uyğun olaraq baza zərfinə daxil olan tibbi xidmətlərdən istifadə edilməsinə dair tibb təchizatçılarına müraciəti;

2.1.10. **azadolma məbləği** – sığorta tələbi irəli sürüldükdə, baza zərfinə daxil olan tibbi xidmətlərdən istifadə edilməsinin icbari tibbi sığorta təminatı ilə əhatə olunmayan və sığorta olunanın üzərində qalan hissəsi.

2.2. Pilot layihədə istifadə olunan digər anlayışlar "İcbari sığortalar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası qanunlarında,

eləcə də sığorta sahəsindəki digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

### 3. Pilot layihənin tətbiq dairəsi və müddəti

3.1. Pilot layihə Azərbaycan Respublikasının *Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərinə* şamil olunur.[9]

*3.2. Pilot layihə Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərinə münasibətdə 2017-ci il yanvarın 1-də, Ağdaş rayonunun inzibati ərazisinə münasibətdə isə 2018-ci il fevralın 17-də başlayır və 2019-cu il fevralın 1-də başa çatır.*[10]

### 4. Sığorta olunanların hüquq və vəzifələri

4.1. Sığorta olunanların aşağıdakı hüquqları vardır:

4.1.1. sığorta hadisəsi baş verdikdə baza zərfinin uyğun olaraq tibbi xidmətlərdən istifadə etmək;

4.1.2. göstərilən tibbi xidmətin növü, həcmi, keyfiyyəti və şərtləri haqqında düzgün məlumatın verilməsini tibb təchizatçılarından tələb etmək;

4.1.3. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həkim sirri ilə qorunan məlumatların gizli saxlanmasını tələb etmək;

4.1.4. tibb təchizatçısının təqsiri üzündən dəymiş zərərin əvəzinin ödənilməsini tibb təchizatçısından tələb etmək;

4.1.5. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

4.2. Sığorta olunanların aşağıdakı vəzifələri vardır:

4.2.1. tibb təchizatçısına müraciət etdikdə, şəxsiyyətini təsdiq edən sənədi təqdim etmək;

4.2.2. pilot layihənin tələblərinə, o cümlədən göndəriş sisteminə riayət etmək.

4.3. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

### 5. Tibb təchizatçısının hüquq və vəzifələri

5.1. Tibb təchizatçısının aşağıdakı hüquqları vardır:

5.1.1. pilot layihənin 13-cü hissəsinə uyğun olaraq bağlanmış müqavilə əsasında göstərilmiş tibbi xidmət üzrə sığorta ödənişinin həyata keçirilməsini Agentlikdən tələb etmək;

5.1.2. baza zərfinə daxil olan tibbi xidmətlərin növü, həcmi və göstərilməsi şərtlərinin pilot layihənin 13-cü hissəsində nəzərdə tutulmuş müqaviləyə uyğun olmamasını mübahisələndirmək;

5.1.3. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

5.2. Tibb təchizatçılarının aşağıdakı vəzifələri vardır:

5.2.1. azadolma nəzərə alınmaqla, sığorta olunanlara baza zərfi çərçivəsində ödənişsiz tibbi xidmətlər göstərmək;

5.2.2. sığorta olunanlara baza zərfi çərçivəsində göstərilən tibbi xidmətin keyfiyyətinə təminat vermək;

5.2.3. sığorta olunanlara baza zərfi çərçivəsində göstərilən tibbi xidmətin uçotunu aparmaq;

5.2.4. göstərilmiş tibbi xidmətin növünə, həcminə və şərtlərinə nəzarətin həyata keçirilməsi üçün göstərilmiş tibbi xidmətlər, habelə tibbi xidmət göstərilmiş şəxslər barədə məlumatları Agentliyə təqdim etmək;

5.2.5. baza zərfi çərçivəsində göstərilən tibbi xidmətlər barədə hesabatları bu sənəddə nəzərdə tutulmuş müddətdə Agentliyə təqdim etmək;

5.2.6. rəsmi internet saytında iş rejimi və göstərilən tibbi xidmətin növləri barədə məlumatları yerləşdirmək;

5.2.7. Agentliyin müraciətinə əsasən tibbi xidmətin keyfiyyəti və əlçatanlıq göstəriciləri barədə məlumatları Agentliyə təqdim etmək;

5.2.8. tibb işçisinin təqsiri üzündən şəxslərin sağlamlığına dəymiş zərərin əvəzini ödəmək;

5.2.9. ixtisaslaşdırılmış tibbi xidmətin göstərilməsi mümkün olmadıqda, tibb təchizatçısı tərəfindən sığorta olunanları bu xidməti göstərən və Agentliklə müqavilə bağlamış digər tibb təchizatçısına göndərmək;

5.2.10. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

## 6. Agentliyin hüquq və vəzifələri

6.1. Agentliyin aşağıdakı hüquqları vardır:

6.1.1. baza zərfi çərçivəsində tibb xidmətlərin göstərilməsi və bu xidmətlərin maliyyələşdirilməsi barədə tibb təchizatçıları ilə müqavilə bağlamaq;

6.1.2. baza zərfi çərçivəsində göstərilən tibbi xidmətlərin növünə, həcminə, keyfiyyətinə və şərtlərinə nəzarət etmək;

6.1.3. pilot layihədə nəzərdə tutulmuş vəzifələrin tibb təchizatçısı tərəfindən icra edilmədiyi və ya lazımınca icra edilmədiyi təqdirdə, sığorta olunanlara baza zərfi çərçivəsində göstərilmiş tibbi xidmətlərə görə sığorta ödənişini həyata keçirməmək, qismən həyata keçirmək və ya tibb təchizatçısından sığorta ödənişi məbləğinin geri qaytarılmasını tələb etmək;

6.1.4. baza zərfinə daxil olmayan xidmətlərin ödənilməsindən imtina etmək;

6.1.5. sığorta tələblərinin zəruriliyinə nəzarət etmək;

6.1.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq digər hüquqları həyata keçirmək.

6.2. Agentliyin vəzifələri:

6.2.1. sığorta tələbi irəli sürüldükdə, pilot layihədə müəyyən edilmiş növdə, həcmdə və şərtlərə uyğun olaraq tibbi xidmətlərin təşkilini və maliyyələşdirilməsini həyata keçirtmək;

6.2.2. baza zərfinə daxil olan tibbi xidmətlərin növü, həcmi və göstərilməsi şərtlərinin pilot layihənin 13-cü hissəsində nəzərdə tutulmuş müqaviləyə uyğun olmasına nəzarət etmək;

6.2.3. sığorta olunanlara baza zərfi çərçivəsində göstərilmiş tibbi xidmətlərə görə tibb təchizatçısına sığorta ödənişini həyata keçirmək;

6.2.4. baza zərfi çərçivəsində göstərilmiş tibbi xidmətlərlə əlaqədar sığorta olunanların şikayətlərinə baxılmasını təmin etmək;

6.2.5. tabeliyinə verilmiş dövlət səhiyyə qurumlarının xərclər smetasını təsdiq etmək;

6.2.6. tabeliyinə verilmiş dövlət səhiyyə qurumlarının işçilərinə icbari tibbi sığorta sahəsində təlimlər təşkil etmək;

6.2.7. fəaliyyət istiqamətlərinə uyğun olaraq digər vəzifələri həyata keçirmək.

## 7. Sığorta ödənişi

7.1. İlkin səhiyyə xidməti, TTTY, ambulator və stasionar tibbi xidmət üzrə sığorta ödənişinin məbləği və ödənilmə şərtləri pilot layihənin 2.1.4-cü və 2.1.5-ci yarımbəndlərində nəzərdə tutulmuş sığorta ödənişi metodlarından istifadə etməklə pilot layihənin 13-cü hissəsinə uyğun olaraq Agentlik və tibb təchizatçısı arasında bağlanan müqavilə ilə müəyyən edilir.

7.2. Pilot layihədə nəzərdə tutulmuş sığorta ödənişi metodlarının tətbiqi qaydası Agentlik tərəfindən müəyyən edilir.

7.3. Agentliyin tabeliyinə verilmiş dövlət səhiyyə qurumlarının xərclər smetasında nəzərdə tutulmuş məbləğ ilə Agentlik tərəfindən həmin qurumlara verilmiş sığorta ödənişlərinin məbləği arasında fərq yarandığı halda, həmin fərqin aylıq əsaslarla maliyyələşməsi Agentlik tərəfindən təsdiq edilmiş pilot layihə büdcəsinin vəsaitləri hesabına həyata keçirilir.

7.4. Pilot layihənin 7.3-cü bəndinə uyğun olaraq Agentlik tərəfindən ödənilən fərqin xərclənməmiş hissəsi cari ilin sonunda həmin qurumların icra olunmuş xərclər smetası əsasında Agentliyə geri qaytarılır.

## 8. Sığorta ödənişindən imtinanın əsasları

8.0. Agentlik aşağıdakı hallarda sığorta ödənişinin verilməsindən imtina edir:

8.0.1. sığorta tələbi baza zərfinə daxil olmayan tibbi xidmət ilə bağlı olduqda;

8.0.2. sığorta tələbi mənəvi zərərlə və ya gəlir itkisi ilə bağlı olduqda;

8.0.3. sığorta hadisəsinin baş vermədiyi aşkar edildikdə;

8.0.4. tibb təchizatçıları tərəfindən göstərilən tibbi xidmətlərə dair düzgün olmayan məlumatların Agentliyə təqdim edildiyi aşkar edildikdə.

## 9. TTTY və ilkin səhiyyə xidmətinin təşkili qaydası

9.1. İlkin səhiyyə xidmətlərini göstərən tibb təchizatçısı yalnız ona təhkim olunmuş sığorta olunanlara xidmət göstərir. Sığorta olunanların ilkin səhiyyə xidməti üzrə fəaliyyət göstərən tibb təchizatçısına təhkim olunma qaydası Agentlik tərəfindən müəyyən edilir.

9.2. Sığorta olunanların təhkim olunduğu ilkin səhiyyə xidmətlərini göstərən tibb təchizatçısı haqqında məlumatı Agentliyin nümayəndəsindən əldə edir.

9.3. Sığorta olunanlar ilkin səhiyyə xidmətlərini göstərən tibb təchizatçısını ildə 2 (iki) dəfədən çox olmamaq şərtilə Agentliyə müraciət etməklə həmin ərazidə fəaliyyət göstərən digər tibb təchizatçısı ilə əvəz edə bilər.

9.4. TTTY stasionar qaydada tibb təchizatçısının yerləşdiyi inzibati binada və ya çağırış üzrə fəaliyyət göstərir. TTTY-nın iş qaydası Agentlik tərəfindən müəyyən edilir.

## 10. Tibb təchizatçılarında göndəriş sisteminin tətbiqi

10.1. Sığorta olunanların baza zərfi çərçivəsində ambulator tibbi xidmətlərdən istifadəsinə yalnız ilkin səhiyyə xidmətlərini göstərən tibb təchizatçısının göndərişinə əsasən yol verilir.

10.2. Sığorta olunanların baza zərfi çərçivəsində stasionar tibbi xidmətlərdən istifadəsinə ambulator tibbi xidmət, ilkin səhiyyə, TTTY sahəsində fəaliyyət göstərən tibb təchizatçısının göndərişinə əsasən yol verilir.

10.3. Sığorta olunanlar ambulator və stasionar tibbi xidmətlərdən göndərişsiz istifadə etmək istədikdə, pilot layihə ilə nəzərdə tutulmuş azadolma məbləğini ödəməlidirlər. Baza zərfinə daxil olan stasionar tibbi xidmətlər Agentlik tərəfindən müəyyən edilmiş növbəlilik qaydasında göstərilir.

## 11. Baza zərfi

11.1. Baza zərfi TTTY və ilkin səhiyyə, ixtisaslaşmış ambulator-poliklinik və stasionar tibbi xidmətləri, eləcədə dərman vasitələri ilə təminatı əhatə edir.

11.2. Pilot layihə çərçivəsində baza zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən olunur və Agentliyin rəsmi internet saytında yerləşdirilir.

11.3. Azadolma məbləği nəzərə alınmaqla, pilot layihə çərçivəsində sığorta olunanlar baza zərfinə daxil olan tibbi xidmətlərdən istifadə etmək hüququna malikdirlər.

11.4. Sığorta olunanlar baza zərfi ilə əhatə olunmayan tibbi xidmətlərdən Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilmiş tariflərə uyğun olaraq öz vəsaitləri hesabına istifadə edə bilərlər.

## 12. Azadolma məbləği

12.1. İlkin səhiyyə xidmətinin göndərişi olmadan ambulator tibbi xidmət üçün birbaşa müraciət edilən hallarda sığorta olunan hər müraciət üçün 3 (üç) manat həcmində azadolma məbləği ödəməlidir.

12.2. Sığorta olunan kompüter tomoqrafiyası (tam, kontrastlı, kontrastsız və kompüter tomoqrafiyası altında keçiriləcək diaqnostik və müalicəvi müdaxilələr daxil olmaqla) üzrə göstərilən tibbi xidmətə dair tibb təchizatçısına 2 (iki) dəfədən artıq müraciət etdikdə, hər əlavə müayinə üçün 10 (on) manat həcmində azadolma məbləği ödəməlidir.

12.3. Sığorta olunan maqnit rezonans tomoqrafiyası (tam, kontrastlı, kontrastsız) üzrə göstərilən tibbi xidmətə dair tibb təchizatçısına 2 (iki) dəfədən artıq müraciət etdikdə, hər əlavə müayinə üçün 20 (iyirmi) manat həcmində azadolma məbləği ödəməlidir.

12.4. Baza zərfinə daxil olan tibb vasitələri istisna olmaqla, digər tibb vasitələrinin qiyməti sığorta olunan tərəfindən ödənilir.

12.5. Azadolma məbləği sığorta olunan tərəfindən birbaşa tibb təchizatçısına ödənilir.

## 13. Tibbi xidmətlərin maliyyələşdirilməsinə dair müqavilə

13.1. Tibbi xidmətlərin maliyyələşdirilməsinə müqavilə Agentlik və tibb təchizatçısı arasında bağlanılır.

13.2. Tibbi xidmətlərin maliyyələşdirilməsinə dair müqavilə tərəflərin hüquq və vəzifələrini, sığorta ödənişinin müddətlərini, müqavilənin şərtlərinin pozulması nəticəsində dəbbə pulunun həcmini, müqaviləyə xitam verilməsi şərtlərini və Azərbaycan Respublikasının Mülki Məcəlləsi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri tənzimləyir.

13.3. Tibbi xidmətlərin maliyyələşdirilməsi haqqında müqavilənin forması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla Agentlik tərəfindən müəyyən edilir.

## 14. Tibbi xidmətlərin tarifləri

14.1. Pilot layihə çərçivəsində baza zərfinə daxil olan tibbi xidmətlərin tarifləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən olunur.

14.2. Pilot layihə ilə əhatə olunmayan şəxslərə tibbi xidmətlər göstərildikdə, baza zərfinə daxil olan və baza zərfinə daxil olmayan tibb xidmətlər Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən olunmuş tariflərə uyğun olaraq öz vəsaitləri hesabına göstərilir.

## 15. Tibb işçilərinin əmək haqları

Göstərilmiş tibbi xidmətlərin müqabilində tibb işçilərinin mövcud əmək haqlarına əlavələr Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tələbləri nəzərə alınmaqla Agentlik tərəfindən müəyyən edilmiş qaydada verilir.

## 16. Subroqasiya hüququ

16.1. Pilot layihənin məqsədləri üçün subroqasiya hüququ sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi həyata keçirmiş Agentliyin istifadə etmək hüququdur.

16.2. Agentlik subroqasiya hüququndan məhkəmə qaydasında istifadə etmək hüququna malikdir.

16.3. Sığorta ödənişi almış şəxsin eyni risklərdən sığortalanmasını nəzərdə tutan digər sığorta müqaviləsi mövcud olduqda, icbari tibbi sığorta üzrə sığorta ödənişini həyata keçirmiş Agentlik həmin müqavilənin tərəfi olan sığortaçıya qarşı sığorta ödənişi miqdarında subroqasiya hüququndan istifadə etmək hüququna malikdir.

## 17. Tibbi xidmətin növünə, həcminə və göstərilməsi şərtlərinə nəzarət

17.1. Baza zərfinə daxil olan tibbi xidmətlərin növü, həcmi və göstərilməsi şərtlərinin pilot layihənin 13-cü hissəsində nəzərdə tutulmuş müqaviləyə uyğun olmasına nəzarət Agentlik tərəfindən həyata keçirilir.

17.2. Tibb təchizatçısı pilot layihənin 17.1-ci bəndinin Agentlik tərəfindən icrası zamanı lazımi şərait yaratmalı, zəruri materialları təqdim etməli və mütəxəssislərin (ekspertlərin) fəaliyyətinə mane olmamalıdır.

## 18. Agentliyin və tibb təchizatçılarının hesabatlılığı

18.1. Agentlik pilot layihə ilə bağlı xərcləri hər rüb üzrə təhlil edir və Azərbaycan Respublikasının Prezidentinə məlumat verir.

18.2. Tibb təchizatçıları hər ayın 15-dən gec olmamaq şərtilə ötən təqvim ayı üzrə baza zərfi çərçivəsində göstərilmiş tibbi xidmətlər barədə Agentliyə hesabatlar təqdim edirlər.

18.3. Hesabatların növü, forması və təqdim edilmə qaydası Agentlik tərəfindən müəyyən edilir.

## 19. Satınalma

Pilot layihə müddətində Agentlik və Agentliyin tabeliyinə verilmiş dövlət səhiyyə qurumları tərəfindən malların (işlər və ya xidmətlərin) satın alınması "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunun 21-ci maddəsinə əsasən bir mənbədən satınalma metodu tətbiq edilərək həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair tədbirlər planı**

| **Sıra №-si** | **Tədbirin adı** | **İcraçılar** | **İcra müddəti** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| 1 | Agentliyin tabeliyində olan tibb təchizatçılarının Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş qaydada maliyyələşdirilməsi | Agentlik | 31 yanvar 2017-ci il tarixədək |
| 2 | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 noyabr tarixli 1127 nömrəli Fərmanı ilə Agentliyə ayrılmış maliyyə vəsaitləri nəzərə alınmaqla, pilot layihənin büdcəsinin təsdiq edilməsi | Agentlik | 31 yanvar 2017-ci il tarixədək |
| 3 | Agentliyin tabeliyində olan tibb təchizatçılarının icbari tibbi sığortanın tələblərinə əsasən maliyyələşdirilməsinə keçid | Agentlik | **31 yanvar** 2017-ci il tarixədək |
| 4 | Tibb təchizatçılarının Nizamnamələrinin publik hüquqi şəxs kimi qeydiyyatdan keçirilməsi, strukturunun optimallaşdırılması (birləşdirilməsi, çevrilməsi və s.), fəaliyyətinin və idarəetmə | Agentlik<br>Azərbaycan Respublikasının Vergilər Nazirliyi | 31 yanvar 2017-ci il tarixədək |

| | | | |
|---|---|---|---|
| | prinsiplərinin icbari tibbi sığortanın tələblərinə uyğunlaşdırılması | | |
| 5 | İlkin səhiyyə xidmətlərini göstərən tibb təchizatçılarının fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən özəl sektoru cəlb etməklə həmin tibb təchizatçılarının maddi-texniki və kadr potensialının gücləndirilməsi | Agentlik | 01 fevral 2017-ci il tarixədək |
| 6 | Agentliyin tabeliyinə verilmiş tibb təchizatçılarının xərclər smetasının icbari tibbi sığortaya uyğunlaşdırılması | Agentlik | 01 fevral 2017-ci il tarixədək |
| 7 | TTTY-nin gücləndirilməsi, o cümlədən maddi-texniki bazasının yaxşılaşdırılması, TTTY postlarının ərazi üzrə yerləşməsinin optimallaşdırılması, habelə tibb təchizatçısının ərazisində stasionar TTTY xidmətinin təkmilləşdirilməsi | Agentlik | 01 fevral 2017-ci il |
| 8 | Tibb təchizatçısının elektron informasiya sistemlərinin (proqram təminatı, rabitə və təhlükəsizlik sistemlərinin) qurulması | Agentlik | 01 fevral 2017-ci il |
| 9 | Əhalinin sığortalanması üçün qeydiyyat məntəqələrinin yaradılması və sığortalanma işinin təşkili, əhalinin sığortalanmasına başlanılması | Agentlik | 01 fevral 2017-ci il tarixədək |
| 10 | İcbari tibbi sığortanın pilot layihə çərçivəsində elektron qaydada həyata keçirilməsini təmin etmək məqsədi ilə elektron portalın yaradılması | Agentlik, Azərbaycan Respublikasının*Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyi[11] | 31 yanvar 2017-ci il tarixədək |

| | | | |
|---|---|---|---|
| 11 | Elektron portalın fəaliyyətinin təşkili | Agentlik, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | Pilot layihə müddəti ərzində |
| 12 | Pilot layihə üzrə maliyyə xərclərinin təhlili və Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi | Agentlik | hər rüb üzrə |
| 13 | Pilot layihənin yekunlarına dair hesabatın və icbari tibbi sığortanın Azərbaycan Respublikasının digər regionlarında tətbiqi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Agentlik | 01 mart 2018-ci il |

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Mingəçevir şəhərinin, *Yevlax və Ağdaş rayonlarının* inzibati ərazilərində icbari tibbi sığortanın baza zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri**[12]

| Sıra nömrəsi | Tibbi xidmətin adı | Tibbi xidmətin tarifi (ƏDV-siz, manatla) |
|---|---|---|
| **1.1. İLKİN SƏHİYYƏ XİDMƏTİ TƏMİNATI** | | |
| 1.1.1 | **Əhalinin ixtisas həkiminə qədərki müayinəsi, tibbi göstərişlərə əsasən müvafiq ixtisas həkimlərinə və əlavə müayinələrə göndərilməsi** | Hər təhkim olunmuş şəxsə görə illik 18,00 manat. |
| 1.1.2 | **Hamilə qadınların patronajı** | |
| 1.1.3 | **Yenidoğulmuşların patronajı** | |
| 1.1.4 | **0-6 yaşlı uşaqların profilaktik peyvənd təqviminə uyğun tədbirlərin aparılması (Peyvəndlər AR Səhiyyə Nazirliyi tərəfindən təmin edilir).** | |
| 1.1.5 | **Qidalanma, gündəlik rejim barədə əhaliyə məsləhət xidməti (Sanitariya maarifi işi)** | |
| 1.1.6 | **Qan alma** | |
| 1.1.7 | **USM (abdominal, ginekoloji, uroloji)** | |
| 1.1.8 | **EKQ** | |
| 1.1.9 | **Görmə qabiliyyətinin yoxlanılması** | |
| 1.1.10 | **İlkin terapevtik tibbi yardım xidməti** | |
| 1.1.11 | **Əzələdaxili, damar daxili, dərialtı inyeksiyaları olunması** | |
| 1.1.12 | **Burun tamponadası** | |
| 1.1.13 | **Yara sarğısı (kiçik, orta, böyük ölçülü)** | |
| 1.1.14 | **Uretral və sidik kisəsinə kateterlərin taxılması** | |
| 1.1.15 | **Nazoqastral kateterin qoyulması** | |
| 1.1.16 | **Təmizləyici imalənin olunması** | |
| 1.1.17 | **Yaxmanın götürülməsi** | |
| 1.1.18 | **Mədənin yuyulması** | |
| **1.2. TƏCİLİ TİBBİ YARDIM TƏMİNATI** | | |
| 1.2.1 | **Ambulans xidməti - şəhər içi** | 30 |
| 1.2.2 | **Tibbi təxliyyə feldşer müşayiəti ilə (şəhər içi)** | 20 |
| 1.2.3 | **Təcili yardım briqadasının eyni xəstəliyə görə tələb olunan təkrar - aktiv çağırışı, xəstəyə baxışı** | 15 |

| | | |
|---|---|---|
| 1.2.4 | **Şəhərdən kənara təcili yardım briqadasının çağırılması (60 kmməsafəyadək)** | 50 |
| 1.2.5 | **Şəhərdən kənara təcili yardım briqadasının çağırılması (160 km məsafəyadək)** | 100 |
| 1.2.6 | **Şəhərdən kənara təcili yardım briqadasının çağırılması (500 km məsafəyadək və artıq)** | 200 |
| **2.1 AMBULATOR XİDMƏT TƏMİNATI** | | |
| 2.1.1 | **İxtisaslı həkim müayinəsi** | 8 |
| 2.1.2 | **Ginekoloqun müayinəsi+USM** | 8 |
| 2.1.3 | **HMK-nın rəyi** | ödənişsiz |
| 2.1.4 | **Daxili konsultasiya** | 0 |
| 2.1.5 | **"Kontrol müayinə (21 gün)"- 21 gün ərzində eyni həkimə eyni xəstəliklə əlaqədar təkrar ambulator müayinə** | ödənişsiz |
| 2.1.6 | **"Kontrol müayinə (müdaxilə sonrası 21 gün)"-əməliyyatdan sonra 21 gün ərzində kontrol məqsədi ilə müraciət** | ödənişsiz |
| 2.1.7 | **Dəri və selikli qişa yaxması** | 5 |
| 2.1.8 | **Vizometriya+aftorefraktometriya+göz təzyiqinin yoxlanılması (göz müayinəsi paketi)** | 6 |
| 2.1.9 | **Kompüterlə görmə sahəsi müayinəsi** | 12 |
| 2.1.10 | **Biometriya iki göz** | 6 |
| 2.1.11 | **Ultrasonoqrafiya (ultrasəs müayinəsi) iki göz** | 12 |
| 2.1.12 | **Ultrasəs + biometriya iki göz** | 16.2 |
| 2.1.13 | **Ekzoftalmometriya** | 6.6 |
| 2.1.14 | **Rəng hissinin müayinəsi** | 6 |
| 2.1.15 | **Sinoptofor müayinəsi (hər bir seansı)** | 4.2 |
| 2.1.16 | **Icg angioqrafiyası (yaşıl insianinlə angioqrafiya)** | 36 |
| 2.1.17 | **OST KT** | 42 |
| 2.1.18 | **Ön seqmentin rəngli şəkli (tək göz)** | 6.6 |
| 2.1.19 | **Arxa seqmentin rəngli şəkli (tək göz)** | 12.6 |
| 2.1.20 | **Endotelial biomikroskopiya bir göz** | 6 |
| 2.1.21 | **Ön seqmentin rəngli şəkli (tək göz) + arxa seqment fundus rəngli şəkil** | 18 |
| 2.1.22 | **Şirmer testi** | 3 |
| 2.1.23 | **Retrobulbar və parabulbar inyeksiyalar** | 6 |
| 2.1.24 | **Subkonyuktival və subtenon inyeksiyaları** | 3 |
| 2.1.25 | **İntravitreal punksiya və ya inyeksiya (müayinə üçün)** | 30 |
| 2.1.26 | **Konyuktivadan yad cisim çıxardılması** | 12 |
| 2.1.27 | **Korneadan yad cisim çıxardılması** | 12 |
| 2.1.28 | **Pakimetriya pamiki göz** | 6 |
| 2.1.29 | **Pnevmotonometriya (göz təzyiqinin ölçülməsi)** | 3 |
| 2.1.30 | **Avtorefraktometriya** | 3 |

| | | |
|---|---|---|
| 2.1.31 | **Eynək müayinəsi** | 9 |
| 2.1.32 | **Korneanın debridmanı (epiteliyin təmizlənməsi)** | 19.2 |
| 2.1.33 | **Göz yaşı kanalının yuyulması** | 12 |
| 2.1.34 | **Yaş kanalının testi** | 3 |
| 2.1.35 | **Göz yaşı kanalının açılması uşaqlarda** | 30 |
| 2.1.36 | **Keratopoqrafiya** | 15 |
| 2.1.37 | **Fluorescein fundus angioqragiya bir göz (FFA)** | 36 |
| 2.1.38 | **İntravitreal inyeksiyası**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 60 |
| 2.1.39 | **Yerli dərman təyini** | 3.6 |
| 2.1.40 | **Uşaqlıq ifrazatının təhlili** | 3 |
| 2.1.41 | **Pap smear alınması** | 3 |
| 2.1.42 | **Kültürün alınması** | 3 |
| 2.1.43 | **Douqlas (arxa tağ) punksiyası** | 7.2 |
| 2.1.44 | **Kolposkopiya** | 18 |
| 2.1.45 | **Serviks (uşaqlıq boynu) eroziyasının koterizasiyası** | 24 |
| 2.1.46 | **Karman aspirasiyası** | 24 |
| 2.1.47 | **Hamiləliyin USM ilə təyini** | 24 |
| 2.1.48 | **Pelvik USM** | 15 |
| 2.1.49 | **Ezofaqoqastroduodenoskopiya**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 25 |
| 2.1.50 | **Rektoskopiya** | 48 |
| 2.1.51 | **Sol kolon (fibrorektosiqmoidoskopiya)** | 48 |
| 2.1.52 | **Kolonoskopiya** | 48 |
| 2.1.53 | **Ezofaqus varikozunun skleroterapiyası**<br>Xidmətə daxil olan anesteziyanın növü - ümumi<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 150 |
| 2.1.54 | **Üst qis qanamalarında koaqulyasiya və inyeksiya terapiya**<br>Xidmətə daxil olan anesteziyanın növü - ümumi<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 300 |
| 2.1.55 | **Alt qis qanamalarında koaqulyasiya və inyeksiya terapiya**<br>Xidmətə daxil olan anesteziyanın növü - ümumi<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 300 |
| 2.1.56 | **Qis daralmalarında balon / bujla dilatasiya**<br>Xidmətə daxil olan anesteziyanın növü - ümumi<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 180 |
| 2.1.57 | **Üst qis yad cismin çıxarılması**<br>Xidmətə daxil olan anesteziyanın növü - ümumi<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 150 |
| 2.1.58 | **Endoskopik yolla qida zondunun yerləşdirilməsi**<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 42 |

| | | |
|---|---|---|
| 2.1.59 | **Endoskopik perkutan qastrostomiya**<br>Xidmətə daxil olan anesteziyanın növü - ümumi<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 210 |
| 2.1.60 | **Perkutan qastroyeyunostomiya**<br>Xidmətə daxil olan anesteziyanın növü - ümumi<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 210 |
| 2.1.61 | **Boşaldıcı parasentez** | 30 |
| 2.1.62 | **Nazobiliar/pankreatik drenajın nəzarəti** | 60 |
| 2.1.63 | **T-tipli drenajla xolangioqram** | 60 |
| 2.1.64 | **İntraoperasion ezofaqoqastroduodenoskopiya** | 90 |
| 2.1.65 | **Endoskopik biliar endoprotezin çıxarılması**<br>Xidmətə daxil olan anesteziyanın növü - ümumi | 180 |
| 2.1.66 | **Endoskopik mukozal rezeksiya**<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 180 |
| 2.1.67 | **Endoskopik kisto-qastrostomiya** | 240 |
| 2.1.68 | **Endoskopik kisto-duodenostomiya** | 270 |
| 2.1.69 | **Ezofaqus varikozun müalicəsi (skleroterapiyası, həlqə qoyulması)**<br>Xidmətə daxil olmayan tibbi vasitələr - tibbi sərf | 330 |
| 2.1.70 | **Larinqoskopiya** | 10 |
| 2.1.71 | **Qulaq kiri tıxacı (yuyulma və manipulyasiya)** | 12.5 |
| 2.1.72 | **Ventilyasiya borusunun çıxarılması** | 30 |
| 2.1.73 | **Otoakustik emissiya** | 10.5 |
| 2.1.74 | **Perforasion təbil pərdəsinin kənarlarının yandırılması** | 30 |
| 2.1.75 | **Burun sümüyü qırığının düzəldilməsi** | 50 |
| 2.1.76 | **Burun boşluğundan yad cismin çıxarılması** | 30 |
| 2.1.77 | **Burun boşluğundan arxa tamponun çıxarılması** | 30 |
| 2.1.78 | **Udlaqdan yad cismin çıxarılması** | 50 |
| 2.1.79 | **Paranazal punksiya 1 tərəf** | 15 |
| 2.1.80 | **Lakunaların yuyulması (3 seans)** | 24 |
| 2.1.81 | **Yaxmanın alınması** | 2 |
| 2.1.82 | **Parasentez** | 15 |
| 2.1.83 | **Perforasiyalı təbil pərdəsinin təmiri** | 75 |
| 2.1.84 | **Qulaq arxası inyeksiya olunması** | 2.5 |
| 2.1.85 | **Orta qulaq inyeksiyası olunması** | 26.5 |
| 2.1.86 | **Burun boşluğunun ön və arxa tamponadası** | 75 |
| 2.1.87 | **Xarici qulaq keçəcəyindən yad cisim çıxarılması** | 30 |
| 2.1.88 | **Burun boşluğunda qanayan sahənin yandırılması (elektrokoaqulyasiya)** | 30 |
| 2.1.89 | **Traxeostomiya borusunun çıxardılması** | 30 |
| 2.1.90 | **Udlağa dərman maddələrinin sürtülməsi** | 4 |
| 2.1.91 | **Təbil pərdəsinə t- tüpün qoyulması** | 55 |
| 2.1.92 | **Xarici qulaq keçəcəyi furunkulunun açılması** | 5 |

| | | |
|---|---|---|
| 2.1.93 | **Lakunaların yuyulması (1 seans)** | 5 |
| 2.1.94 | **Tonzillektomiya əməliyyatı sonrası qanaxmanın dayandırılması** | 30 |
| 2.1.95 | **Burun arakəsməsi absesin açılması** | 20 |
| 2.1.96 | **Burun furunkulunun açılması** | 20 |
| 2.1.97 | **Otohematomanın punksiyası** | 20 |
| 2.1.98 | **Endonazal inyeksiya (1 seans)**<br>Xidmətə daxil olmayan tibbi vasitələr - Dərman | 3 |
| 2.1.99 | **Orta burun keçəcəyinin anemizasiyası burun boşluğuna dərman maddələrinin yeridilməsi (1 seans)** | 3 |
| 2.1.100 | **Yevstax Borularının kateterizasiyası (5 seans)** | 30 |
| 2.1.101 | **Peritonzillyar absesin açılması (birtərəfli)**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 25 |
| 2.1.102 | **Qırtlağa dərman maddələrinin tökülməsi** | 5 |
| 2.1.103 | **Parasentez boru (təktərəfli) (ambulator)**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 50 |
| 2.1.104 | **Fibroendoskopik müayinə** | 25 |
| 2.1.105 | **Burun boşluğunun arxa tamponadası** | 50 |
| 2.1.106 | **Udlaqarxası absesin açılması** | 30 |
| 2.1.107 | **Paranazal punksiya ikitərəfli** | 35 |
| 2.1.108 | **İkisaatlıq EEQ monitorizasiyası** | 45 |
| 2.1.109 | **Kompüter EMQ** | 50 |
| 2.1.110 | **Birsaatlıq EEQ monitorizasiyası** | 30 |
| 2.1.111 | **Ən azı 12 aparmalı elektrokardioqram: EKQ + izah və nəticə** | 5 |
| 2.1.112 | **Kardiovaskulyar stress test - treadmill, veloerqometr, farmakoloji** | 17.5 |
| 2.1.113 | **24 saatlıq EKQ və arterial təzyiqin qeydi - holter monitoru** | 22.5 |
| 2.1.114 | **Doppler + rəngli exokardioqrafiya** | 17.5 |
| 2.1.115 | **Transezofageal exokardioqrafiya** | 50 |
| 2.1.116 | **Stress exokardioqrafiya** | 50 |
| 2.1.117 | **Kontrastlı müayinənin kontrastsız müayinədən fərqi** | 30 |
| 2.1.118 | **Yuxarı qarın boşluğu KT** | 40 |
| 2.1.119 | **Çanaq KT** | 40 |
| 2.1.120 | **Tam qarın boşluğu KT** | 60 |
| 2.1.121 | **Dinamik KT** | 40 |
| 2.1.122 | **Boyun KT** | 40 |
| 2.1.123 | **Burun-udlaq KT** | 40 |
| 2.1.124 | **Qırtlaq KT** | 40 |
| 2.1.125 | **Gicgah-çənə oynağı (bir tərəf) KT** | 40 |
| 2.1.126 | **Onurğa sütunu boyun nahiyyəsi disk aralığı (üc disk aralığı) KT** | 40 |

| | | |
|---|---|---|
| 2.1.127 | **Onurğa sütunu döş nahiyyəsi disk aralığı (üc disk aralığı) KT** | 40 |
| 2.1.128 | **Onurğa sütunu bel və oma disk aralığı (üc disk aralığı) KT** | 40 |
| 2.1.129 | **Oma qalça oynağı KT** | 40 |
| 2.1.130 | **Bud-çanaq oynağı KT** | 40 |
| 2.1.131 | **Diz KT (bir tərəf)** | 40 |
| 2.1.132 | **Ayaq KT (bir tərəf)** | 40 |
| 2.1.133 | **KT altında diaqnostik müdaxilələr** | 80 |
| 2.1.134 | **Beyin KT (aksial və ya koronal və ya sagital)** | 40 |
| 2.1.135 | **Paranazal sinuslar KT** | 40 |
| 2.1.136 | **Döş qəfəsi KT** | 40 |
| 2.1.137 | **Çiyin KT** | 40 |
| 2.1.138 | **Əl-bilək KT** | 40 |
| 2.1.139 | **Dirsək KT** | 40 |
| 2.1.140 | **Volumetriya KT (qaraciyər)** | 110 |
| 2.1.141 | **KT ilə 3 ölçülü (3D) görüntüləmə (MD)** | 75 |
| 2.1.142 | **Fəqərələrin (4 ədəd) 3 ölçülü (3D) kompüter tomoqrafiyası (MD)** | 60 |
| 2.1.143 | **KT ilə virtual endoskopiya (MD)** | 85 |
| 2.1.144 | **Dinamik KT, birfazalı, ikifazalı müayinə (MD)** | 40 |
| 2.1.145 | **Maksillofasial nahiyyəsinin kompüter tomoqrafiyası (MD)** | 60 |
| 2.1.146 | **Qırtlağın kompüter tomoqrafiyası (MD və ya S)** | 40 |
| 2.1.147 | **KT ilə perfuziya (MD)** | 85 |
| 2.1.148 | **KT ilə virtual kolonoskopiya (MD)** | 85 |
| 2.1.149 | **Kantidativ KT (kalsium skorlama) (MD)** | 60 |
| 2.1.150 | **Üst qarın boşluğu MRT** | 50 |
| 2.1.151 | **Çanaq MRT** | 50 |
| 2.1.152 | **Boyun MRT** | 50 |
| 2.1.153 | **Tam qarın boşluğu MRT** | 75 |
| 2.1.154 | **Burun-udlaq MRT** | 50 |
| 2.1.155 | **Qırtlaq MRT** | 50 |
| 2.1.156 | **Qicgah - alt çənə oynağı MRT (bir tərəf)** | 75 |
| 2.1.157 | **Qicgah - alt çənə oynağı kinematik MRT (iki tərəf)** | 75 |
| 2.1.158 | **MR angioqrafiyası (hər hansı bir nahiyyə)** | 90 |
| 2.1.159 | **Oma-qalça oynağı MRT** | 90 |
| 2.1.160 | **Bud-çanaq oynağı MRT** | 90 |
| 2.1.161 | **Çiyin MRT (bir tərəf)** | 90 |
| 2.1.162 | **Dirsək MRT (bir tərəf)** | 50 |
| 2.1.163 | **Əl, əl-bilək MRT (bir tərəf)** | 50 |
| 2.1.164 | **Diz MRT (bir tərəf)** | 50 |
| 2.1.165 | **Ayaq MRT (bir tərəf)** | 50 |
| 2.1.166 | **Beyin MRT** | 50 |
| 2.1.167 | **Hipofiz MRT** | 50 |

| | | |
|---|---|---|
| 2.1.168 | **Orbita MRT** | 50 |
| 2.1.169 | **Gicgah sümüyü MRT (iki tərəf)** | 50 |
| 2.1.170 | **Paranazal sinuslar MRT** | 50 |
| 2.1.171 | **Boyun fəqərələri MRT** | 50 |
| 2.1.172 | **Döş fəqərələri MRT** | 50 |
| 2.1.173 | **Bel-oma fəqərələri MRT** | 50 |
| 2.1.174 | **Üst abdomen + pelvik MRT** | 100 |
| 2.1.175 | **Kontrastlı MRT angioqrafiya (toraks) (döş qəfəsi MR + kontrast)** | 120 |
| 2.1.176 | **Kontrastlı MRT angioqrafiya (abdomen) (üst abdomen MR + kontrast)** | 120 |
| 2.1.177 | **Kontrastlı MRT angioqrafiya (karotid) (MR angioqrafiyası + kontrast)** | 120 |
| 2.1.178 | **Bud MRT (bir tərəf)** | 50 |
| 2.1.179 | **Baldır MRT (bir tərəf)** | 50 |
| 2.1.180 | **Pəncə MRT (bir tərəf)** | 50 |
| 2.1.181 | **Topuq MRT (bir tərəf)** | 50 |
| 2.1.182 | **Elastik sarğı qoyulması** | 2.5 |
| 2.1.183 | **Boyun fiksatoru**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli<br>Xidmətə daxil olmayan tibbi vasitələr - Tibbi sərf | 10 |
| 2.1.184 | **Köks gips korseti** | 30 |
| 2.1.185 | **Torako-bronxial gips sarğısı** | 42.5 |
| 2.1.186 | **Yuxarı ətrafda gips sarğısı (dirsək üstü)** | 25 |
| 2.1.187 | **Said və əl (dirsək altı) gips sarğısı** | 22.5 |
| 2.1.188 | **Barmaq gipsi** | 12.5 |
| 2.1.189 | **Koksid tipli gips sarğısı (ikitərəfli)** | 75 |
| 2.1.190 | **Koksid tipli gips sarğısı (birtərəfli)** | 65 |
| 2.1.191 | **Külot tipli gips (dizə qədər)** | 65 |
| 2.1.192 | **Dizlik gipsi (tutor)** | 25 |
| 2.1.193 | **Baldır ayaq gipsi** | 25 |
| 2.1.194 | **Bud, baldır, ayaq gipsi** | 40 |
| 2.1.195 | **Gips çəkməsi (təkrar xidmət)** | 15 |
| 2.1.196 | **Gips çıxardılması** | 10 |
| 2.1.197 | **Steroid inyeksiyası** | 22.5 |
| 2.1.198 | **İntraartikulyar inyeksiya** | 30 |
| 2.1.199 | **Barmaq güdüllərinin formalaşdırılması** | 85 |
| 2.1.200 | **Yuxarı ətraflara gips çəkilməsi** | 45 |
| 2.1.201 | **Oynaq çıxıqlarının qapalı reduksiyası (təkrar xidmət)** | 22.5 |
| 2.1.202 | **Oynaq punksiyası** | 30 |
| 2.1.203 | **Yaranın təmizlənməsi (böyük)** | 150 |
| 2.1.204 | **Yaranın təmizlənməsi (orta)** | 100 |
| 2.1.205 | **Yaranın təmizlənməsi (kiçik)** | 50 |

| | | |
|---|---|---|
| 2.1.206 | **Eksternal fiksatorun çıxarılması**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 160 |
| 2.1.207 | **Kiçik sümük sınıqlarının qapalı reduksiyası** | 175 |
| 2.1.208 | **Orta oynaq çıxıqlarının qapalı reduksiyası**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 250 |
| 2.1.209 | **Skelet dartılmalarının qoyulması** | 50 |
| 2.1.210 | **Spirometriya** | 12.5 |
| 2.1.211 | **Plevral punksiya (torasentez)** | 25 |
| 2.1.212 | **Torakoskopiya** | 90 |
| 2.1.213 | **İnterkostal blokada (hər bir səviyyə üçün seansı)** | 5 |
| 2.1.214 | **Plevrodez** | 25 |
| 2.1.215 | **Bronxoskopiya**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 40 |
| 2.1.216 | **Bronxoskopiya + yad cisim çıxardılması**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 50 |
| 2.1.217 | **Bronxoskopiya + biopsiya + bronxial lavaj**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 50 |
| 2.1.218 | **Bronxoskopiya + selektiv bronxoskopiya (yumşaq)**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 50 |
| 2.1.219 | **Bronxoskopiya + bronxo alveolyar lavaj**<br>Xidmətə daxil olan anesteziyanın növü - yerli | 50 |
| 2.1.220 | **Plevra boşluğunun lavajı (təmizlənməsi)** | 30 |
| 2.1.221 | **Döş qəfəsi daxili təzyiqin ölçülməsi** | 10 |
| 2.1.222 | **Plevropulmonar döş qəfəsi USM** | 10 |
| 2.1.223 | **Plevra boşluğunun drenajı** | 30 |
| 2.1.224 | **Plevra boşluğundan hava aspirasiyası (pnevmotoraks)** | 45 |
| 2.1.225 | **Nebulayzerlə kompleks inhalasiyası** | 5 |
| 2.1.226 | **Arxa ön döş qəfəsi rentgenoqrafiyası bir proyeksiyalı** | 10 |
| 2.1.227 | **Lateral döş qəfəsi rentgenoqrafiyası (sol bir proyeksiyalı)** | 10 |
| 2.1.228 | **Liqaşur fistulunun ləğvi** | 10 |
| 2.1.229 | **Oblik döş qəfəsi rentgenoqrafiyası (sağ bir proyeksiyalı)** | 10 |
| 2.1.230 | **Oblik döş qəfəsi rentgenoqrafiyası (sol bir proyeksiyalı)** | 10 |
| 2.1.231 | **Alın burun boşluqları rentgenoqrafiyası (iki proyeksiyalı) dinamika** | 10 |
| 2.1.232 | **Burun sümüyü rentgenoqrafiyası (bir proyeksiyalı)** | 10 |
| 2.1.233 | **Kəllə sümüklərinin rentgenoqrafiyası (ön-arxa iki proyeksiyalı)** | 15 |
| 2.1.234 | **Kəllə sümüklərinin rentgenoqrafiyası (ön-arxa bir proyeksiyalı)** | 10 |
| 2.1.235 | **Submentovertikal rentgenoqrafiya** | 10 |
| 2.1.236 | **Transorbital rentgenoqrafiya (bir proyeksiyalı)** | 10 |
| 2.1.237 | **Optik foramen rentgenoqrafiyası (bir proyeksiyalı)** | 10 |

| | | |
|---|---|---|
| 2.1.238 | **Sella spot rentgenoqrafiyası (bir proyeksiyalı)** | 10 |
| 2.1.239 | **Gicgah-çənə oynağı rentgenoqrafiyası (ağız açıq, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.240 | **Gicgah-çənə oynağı rentgenoqrafiyası (ağız bağlı, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.241 | **Gicgah-çənə oynağı rentgenoqrafiyası (ağız açıq, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.242 | **Gicgah-çənə oynağı rentgenoqrafiyası (ağız bağlı, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.243 | **Boyun fəqərələri rentgenoqrafiyası (ön-arxa; bir proyeksiyalı)** | 10 |
| 2.1.244 | **Boyun fəqərələri rentgenoqrafiyası (lateral; bir proyeksiyalı)** | 10 |
| 2.1.245 | **Boyun fəqərələri rentgenoqrafiyası (oblik, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.246 | **Boyun fəqərələri rentgenoqrafiyası (oblik, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.247 | **Boyun fəqərələri rentgenoqrafiyası (iki proyeksiyalı)** | 15 |
| 2.1.248 | **Boyun fəqərələri rentgenoqrafiyası (dörd proyeksiyalı)** | 25 |
| 2.1.249 | **Döş fəqərələri rentgenoqrafiyası (ön-arxa; bir proyeksiyalı)** | 10 |
| 2.1.250 | **Döş fəqərələri rentgenoqrafiyası (lateral; bir proyeksiyalı)** | 10 |
| 2.1.251 | **Kürək sümüyü rentgenoqrafiyası (sağ; iki proyeksiya)** | 15 |
| 2.1.252 | **Döş fəqərələri rentgenoqrafiyası (oblik, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.253 | **Döş fəqərələri rentgenoqrafiyası (oblik, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.254 | **Döş fəqərələri rentgenoqrafiyası (iki proyeksiyalı)** | 15 |
| 2.1.255 | **Bel fəqərələri rentgenoqrafiyası (ön-arxa; bir proyeksiyalı)** | 10 |
| 2.1.256 | **Bel fəqərələri rentgenoqrafiyası (lateral; bir proyeksiyalı)** | 10 |
| 2.1.257 | **Bel fəqərələri rentgenoqrafiyası (oblik, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.258 | **Bel fəqərələri rentgenoqrafiyası (oblik, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.259 | **Bel fəqərələri rentgenoqrafiyası (iki proyeksiyalı)** | 15 |
| 2.1.260 | **Büzdüm fəqərələri rentgenoqrafiyası (ön-arxa; bir proyeksiyalı)** | 10 |
| 2.1.261 | **Büzdüm fəqərələri rentgenoqrafiyası (lateral; bir proyeksiyalı)** | 10 |
| 2.1.262 | **Büzdüm fəqərələri rentgenoqrafiyası (iki proyeksiyalı)** | 15 |
| 2.1.263 | **Oma büzdüm sümükləri rentgenoqrafiyası (ön-arxa; bir proyeksiyalı)** | 10 |
| 2.1.264 | **Oma büzdüm fəqərələri rentgenoqrafiyası (oblik, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.265 | **Oma büzdüm sümükləri rentgenoqrafiyası (oblik, sol; bir proyeksiyalı)** | 10 |

| | | |
|---|---|---|
| 2.1.266 | Çanaq sümükləri rentgenoqrafiyası (ön-arxa; bir proyeksiyalı) | 10 |
| 2.1.267 | Körpücük sümüyü (clavicula) rentgenoqrafiyası (ön-arxa, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.268 | Körpücük sümüyü rentgenoqrafiyası (ön-arxa, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.269 | Döş sümüyü rentgenoqrafiyası (ön-arxa; bir proyeksiyalı) | 10 |
| 2.1.270 | Döş sümüyü rentgenoqrafiyası (lateral; bir proyeksiyalı) | 10 |
| 2.1.271 | Döş sümüyü rentgenoqrafiyası (iki proyeksiyalı) | 15 |
| 2.1.272 | Kürək sümüyü rentgenoqrafiyası (ön-arxa, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.273 | Kürək sümüyü rentgenoqrafiyası (ön-arxa, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.274 | Kürək sümüyü rentgenoqrafiyası (lateral, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.275 | Kürək sümüyü rentgenoqrafiyası (lateral, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.276 | Kürək sümüyü rentgenoqrafiyası (sol; iki proyeksiyalı) | 15 |
| 2.1.277 | Çiyin oynağı rentgenoqrafiyası (ön-arxa, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.278 | Çiyin oynağı rentgenoqrafiyası (ön-arxa, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.279 | Çiyin oynağı rentgenoqrafiyası (lateral, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.280 | Çiyin oynağı rentgenoqrafiyası (lateral, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.281 | Çiyin oynağı rentgenoqrafiyası (sağ; iki proyeksiyalı) | 15 |
| 2.1.282 | Çiyin oynağı rentgenoqrafiyası (sol; iki proyeksiyalı) | 15 |
| 2.1.283 | Bazu sümüyü rentgenoqrafiyası (ön-arxa, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.284 | Bazu sümüyü rentgenoqrafiyası (ön-arxa, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.285 | Bazu sümüyü rentgenoqrafiyası (lateral, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.286 | Bazu sümüyü rentgenoqrafiyası (lateral, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.287 | Bazu sümüyü rentgenoqrafiyası (sağ; iki proyeksiyalı) | 15 |
| 2.1.288 | Bazu sümüyü rentgenoqrafiyası (sol; iki proyeksiyalı) | 15 |
| 2.1.289 | Dirsək oynağı rentgenoqrafiyası (ön-arxa, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.290 | Dirsək oynağı rentgenoqrafiyası (ön-arxa, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.291 | Dirsək oynağı rentgenoqrafiyası (lateral, sağ; bir proyeksiyalı) | 10 |
| 2.1.292 | Dirsək oynağı rentgenoqrafiyası (lateral, sol; bir proyeksiyalı) | 10 |
| 2.1.293 | Dirsək oynağı rentgenoqrafiyası (sağ; iki proyeksiyalı) | 15 |
| 2.1.294 | Dirsək oynağı rentgenoqrafiyası (sol; iki proyeksiyalı) | 15 |
| 2.1.295 | Said sümüklərinin rentgenoqrafiyası (ön-arxa,sağ; bir proyeksiyalı) | 10 |

| | | |
|---|---|---|
| 2.1.296 | **Bilanq sümüyü rentgenoqrafiyası (ön-arxa, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.297 | **Bilanq sümüyü rentgenoqrafiyası (lateral, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.298 | **Bilanq sümüyü rentgenoqrafiyası (lateral, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.299 | **Bilanq sümüyü rentgenoqrafiyası (sağ; iki proyeksiyalı)** | 15 |
| 2.1.300 | **Bilanq sümüyü rentgenoqrafiyası (sol; iki proyeksiyalı)** | 15 |
| 2.1.301 | **Mil-bilək oynağı rentgenoqrafiyası (ön-arxa, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.302 | **Mil-bilək oynağı rentgenoqrafiyası (ön-arxa, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.303 | **Mil-bilək rentgenoqrafiyası (lateral, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.304 | **Mil-bilək oynağı rentgenoqrafiyası (lateral, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.305 | **Mil-bilək oynağı rentgenoqrafiyası (sağ; iki proyeksiyalı)** | 15 |
| 2.1.306 | **Mil-bilək oynağı rentgenoqrafiyası (sol; iki proyeksiyalı)** | 15 |
| 2.1.307 | **Əl falanqaları rentgenoqrafiyası (ön-arxa, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.308 | **Əl falanqaları rentgenoqrafiyası (ön-arxa, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.309 | **Əl falanqaları rentgenoqrafiyası (lateral, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.310 | **Əl falanqaları rentgenoqrafiyası (lateral, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.311 | **Əl falanqaları rentgenoqrafiyası (sağ; iki proyeksiyalı)** | 15 |
| 2.1.312 | **Əl falanqaları rentgenoqrafiyası (sol; iki proyeksiyalı)** | 15 |
| 2.1.313 | **Bud-çanaq oynaqları rentgenoqrafiya (ön-arxa, sağ; bir proyeksiyalı)** | 10 |
| 2.1.314 | **Bud-çanaq oynaqları rentgenoqrafiya (ön-arxa, sol; bir proyeksiyalı)** | 10 |
| 2.1.315 | **Bud-çanaq oynaqları rentgenoqrafiya qarşılaşdırmalı** | 15 |
| 2.1.316 | **Bud-çanaq oynağı rentgenoqrafiyası (daxilə rotasiya, sağ)** | 10 |
| 2.1.317 | **Bud-çanaq oynaqları rentgenoqrafiya (daxilə rotasiya, sol)** | 10 |
| 2.1.318 | **Bud-çanaq oynaqları rentgenoqrafiya (daxilə rotasiya qarşılaşdırmalı)** | 15 |
| 2.1.319 | **Bud-çanaq oynaqları rentgenoqrafiya (xaricə rotasiya, sağ)** | 10 |
| 2.1.320 | **Bud-çanaq oynaqları rentgenoqrafiya (xaricə rotasiya, sol)** | 10 |
| 2.1.321 | **Bud-çanaq oynaqları rentgenoqrafiya (xaricə rotasiya, qarşılaşdırmalı)** | 15 |
| 2.1.322 | **Oma qalça oynağı rentgenoqrafiya (oblik, sağ)** | 10 |
| 2.1.323 | **Oma qalça oynağı rentgenoqrafiyası (oblik, sol)** | 10 |

| | | |
